# BALAKƏN: BURA VƏTƏNDİR...

**Son illər Balakən rayonunda daha intensiv xarakter alan müasirləşmə tədbirləri, təbii ki, iqtisadi yüksəlişlə yanaşı, ölkə rəhbərliyinin diqqət və qayğısının nəticəsidir. Təkcə rayon mərkəzində deyil kəndlərdə də bunu hiss etmək mümkündür. Kəndlərin əksəriyyətinə qaz xətləri çəkilişlərinin uğurla başa çatdırılması və davam etdirilməsi, içməli su problemlərinin həlli, kəndlərarası yolların müasirləşdirilməsi, sosial-mədəni yüksəliş və digər uğurlu tədbirlər əhali tərəfindən razılıqla qarşılanır. ”Balakənin son illər ərazində inkişafı məni çox sevindirir. Çünki doğrudan da son illərdə böyük bir irəliləyiş olmuşdur...” Rayon haqqında söylənən bu xoş sözlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məxsusdur.**



Bəli, bu bir həqiqətdir ki, şimal-qərb bölgəsindəki sonuncu sərhəd rayonu-



muz Balakən, tanınmaz dərəcədə dəyişib inkişaf etməkdə olan vətən torpağıdır. Sevinirsən, qürur hissi keçirirsən ki, bir zamanların ”ucqar” adlandırılan Balakən rayonu indi urbanik inkişafla sanki bütün məsafələri qısaldaraq bir yaxınlıq, bir mərkəz ovqatı yaradır.

Respublikanın bütün rayonlarında olduğu kimi Balakən rayonunda da 2019-cu ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncaqda sosial-iqtisadi inkişafın dinamikliyi xüsusi vurğulanmışdır. Yığıncaqda məruzə ilə çıxış edən Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev demişdir:

- 2019-cu ilin yanvar-iyun aylarında rayonda istehsal edilmiş məhsulun həcmi əvvəlki ilin eyni dövrünə nisbətən 8,6 faiz artaraq 95,2 milyon manat olmuşdur. Məhsul istehsalının 12,8 faizi sənayedə, 8,3 faizi tikintidə, 37,9 faizi kənd təsərrüfatında, 1,9 faizi nəqliyyatda, 0,8 faizi informasiya və rabitə sahəsində, 38,8 faizi isə ticarət, ictimai iaşə, sosial və digər xidmət sahələrində istehsal edilmişdir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən sənaye məhsulu istehsalının həcmi eyni qalmış, kənd təsərrüfatı məhsulu istehsalı 10,2 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 8,2 faiz, tikinti işlərinin həcmi 36,1 faiz, pərakəndə əmtəə dövriyyəsi 3,7 faiz artmışdır. Birinci yarımillikdə istehsal olunan kənd təsərrüfatı məhsulunun 49,9 faizi bitkiçilik, 50,1 faizi heyvandarlıq məhsullarının payına düşmüş, ümumi məhsul istehsalının rayon əhalisinin hər bir nəfərinə düşən həcmi 967,3 manat təşkil etmişdir.

2019-cu ilin birinci yarısında rayonda kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin göstərilməsi və bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə geniş şərait yaratmışdır. Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün görülən zəruri tədbirlər nəticəsində rayonda 01.07.2019-cu il vəziyyətinə 13684,7 ha sahədə yazlıq və payızlıq əkinlərin aparılması təmin edilmişdir. Onun 1673,7 hektarı payızlıq taxıl, 12011,0 hektarı isə yazlıq əkinlərdir. Yazlıq əkinlərin 2280,0 hektarı tərəvəz, 338,0 hektarı bostan, 597,0 hektarı kartof, 195,0 hektarı lobya, 7213,0 hektarı qarğıdalı, 64,0 hektarı soya, 874,0 hektarı yonca, 450 hektarı isə tütün sahələridir. Taxıl biçini optimal müddətə başa çatdırılmaqla sahələrdən 4715,5 ton taxıl biçilmiş, məhsuldarlıq göstəricisi 28,1 sentner olmuşdur. İstehsal olunmuş taxılın 3402,0 tonunu buğda, 1313,5 tonunu isə arpa təşkil etmişdir.

2019-cu ildə rayonda 43,0 ton barama istehsal edilməsi nəzərdə tutulmuşdu ki, bu da əvvəlki ilin səviyyəsindən 13,0 ton çoxdur. Barama toxumunun rayonda dirildilməsi üçün zəruri işlər görülmüş, 1075 qutu ipəkqurdunun kümçülərə verilməsi təşkil olunmuşdur. Barama istehsalı sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün rayon İcra Hakimiyyətində yaradılmış komissiya ilə birgə lazimi tədbirlər görülmüş və nəticədə kümçülər tərəfindən 44,1 ton barama istehsal olunaraq barama istehsalı proqnozuna 102,6% əməl edilmişdir. Rayon üzrə 311 istehsalçıya təhvil verilmiş 43,6 ton normal yaş baramaya görə 218,1 min manat subsidiya hesablanmaqla subsidiya və baramanın dəyərinin kümçülərə ödənilməsi təmin edilmişdir.

Tütünçülüyün inkişaf etdirilməsi sahəsində də müvafiq işlər görülmüş və 450 ha sahədə tütün əkilməsi təmin edilmişdir. Artıq sahələrdən tütün tədarükünə başlanılmış, 09 avqust 2019-cu il vəziyyətinə ”Azərtütün ASK” MMC-yə 453 ton yaş, ”Azəri” Korporasiyasına 35 ton quru virciniya növ tütün, ”İlham” MMC-yə 3,6 ton ”İmmuniy” növ tütün təhvil verilmişdir.

Cari ildə rayonda yeni fındıq bağlarının salınması məqsədi ilə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələri müəyyənləşdirilmiş, 400 hektar sahədə yeni bağlar salınmaqla fındıq bağlarının ümumi sahəsi 10344 hektara çatdırılmışdır. 388 hektarı xüsusi, 3 hektarı dövlət, 9 hektarı isə bələdiyyə mülkiyyətində olan yeni salınmış fındıq bağlarına aqrotexniki xidmətlər göstərilir. Rayonda bitkiçiliklə yanaşı heyvandarlığın da inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, keçən ilin müvafiq dövrünə nisbətən iribuynuzlu mal qaranın sayı 1,1 faiz, xırdabuynuzlu malın sayı isə 5,8 faiz artmışdır.

Azərbaycan Respublikası Prezidentinin ”Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” 2015-ci il 19 avqust tarixli Sərəncamına uyğun olaraq süni mayalanma yolu ilə alınmış 800 buzova görə 80000 manat subsidiya hesablanaraq sənədlər Respublika Komissiyasına təqdim olunmuşdur. ”Aqrolizinq” ASC-nin rayon nümayəndəliyi tərəfindən istehsalçıların texnikaya, mineral gübrələrə, pestisidlərə olan tələbatlarının ödənilməsi sahəsində işlər görülmüş, 120 ha sahədə əkin aparılmış, 1737,1 ton mineral gübrələrin və 998 litr pestisidin fermerlərə 70% güzəştə satılması təmin edilmişdir. Bunlarla yanaşı qeyd olunmalıdır ki, rayonda kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı tədbirlərin davam etdirilməsi və bu sahədə bütün potensial imkanlardan daha səmərəli istifadə olunmasına ehtiyac vardır. Əkin və örüş sahələrinin səmərəli istifadəsinin təşkil edilməsi, istifadəsiz torpaqların əkin dövriyyəsinə cəlb edilməsi, fındıqçılığın, baramaçılığın, qarğıdalıçılığın, tərəvəzçiliyin, tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı əlavə tədbirlərin görülməsi, suvarma işinin yaxşılaşdırılması, eləcə də digər məsələlərlə bağlı qarşımızda ciddi vəzifələr durur... Yığıncaqda qeyd olunmuşdur ki, 2019-cu ilin I yarısında suvarma kanallarında 126.8 min kubmetr, çaylarda 368.2 min kubmetr həcmində məcra təmizləmə işləri, Mahamalar kəndinin sel sularından müdafiəsi üçün Balakənçayın daş-beton bəndlərində 1600 kubmetr həcmində cari və əsaslı təmir işləri aparılmışdır.



Cari ildə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı İtitala, Kortala, Püştətala, Qazma, Şambul, Xalatala, Qaysa, Meşəşambul və Şərif kəndlərinin hər birində bir quyu olmaqla 9 subartezian quyusu qazılmışdır. Bu da öz növbəsində əkin sahələrinin suvarılmasına müsbət təsirini göstərəcəkdir. Birinci yarımillikdə Balakən-Qazbinə-İtitala avtomobil yolunun tikintisi üzrə İtitala yolunda köhnə asfalt-beton örtük frezlənərək kənara daşınmış, yolun əsası quraşdırılmaqla 6,1 km hissəsinə 2 laylı asfalt-beton örtük, 10,2 km hissəsinə isə örtüyün alt layı döşənmişdir.

Layihəyə daxil olan Beçaqar yolunda yolun əsası inşa edilməklə 4,3 km uzunluğunda 2 laylı asfalt-beton örtük döşənmiş, yol çiyinləri çınqıl materialı ilə bərkidilmiş, yol birləşməsində 1400 m2 2 laylı asfalt-beton örtük quraşdırılmışdır.

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**